# Qazaxıstan Füzulidə dünyasəviyyəli layihəni həyata keçirəcək

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olublar.



AZƏRTAC xəbər verir ki, "Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Raximbayev dövlət başçılarına layihə barədə məlumat verdi.

**Prezident Kasım-Jomart TOKAYEV:** İlham Heydər oğlu, mən istərdim ki, bina tikənlərin ən böyüyü olmasa da, ən böyüklərindən birini - "Bİ" tikinti şirkətinin rəhbəri Aydın Raximbayevi təqdim edim. Məhz o, bizim tapşırığımızla bu çox mühüm layihəni icra edəcək.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Aydın RAXİMBAYEV:** Hörmətli İlham Heydər oğlu, hörmətli Kasım-Jomart Kemeleviç, icazə verin, layihəni Sizə təqdim edim. Bu layihəni - Füzuli şəhərində Yaradıcılıq Mərkəzinin tikintisi layihəsini təqdim etmək mənim üçün böyük şərəfdir. Layihə bizim Prezidentin şəxsi tapşırığı əsasında qısa müddət ərzində hazırlanıb. Bu günə olan vəziyyətə görə, artıq məkan müəyyən edilib, yəni layihə dörd böyük istiqamətdən ibarətdir: musiqi - vokal və xor oxuma, müasir texnologiyalar, yəni uşaqların daha çox xoşuna gələn, uşaq potensialını üzə çıxaran sənət və yaradıcılıq - dulusçuluq sənəti, heykəltəraşlıq və əlbəttə ki, idman - oyun zalları, xoreoqrafiya...

* * *

Məlumat verildi ki, 2 hektar ərazidə müasir memarlığa uyğun binalar, amfiteatr inşa ediləcək. Burada uşaqların yaradıcılığını üzə çıxarmaq və inkişaf etdirmək üçün hər cür şərait olacaq.



* * *

Sonra layihə barədə videoçarx nümayiş etdirildi.

* * *

**Prezident Kasım-Jomart TOKAYEV:** İlham Heydər oğlu, əgər birdən hansısa iradlar yaranarsa...

**Prezident İlham ƏLİYEV:** Heç bir irad ola bilməz. Təqdimat özlüyündə göstərir ki, bu, dünyasəviyyəli layihədir. Mən ilk növbədə Prezident Kasım-Jomart Kemeleviçə bu təşəbbüsə görə minnətdarlıq etmək istərdim. Bu təşəbbüs iki ay bundan əvvəl irəli sürülüb və bu məsələ belə operativ həll edilib. Əlbəttə, bu gün buradakı təqdimata görə şirkətə də təşəkkürümü bildirirəm. Bu gün Sizin göstərdiyiniz, həqiqətən də, uşaqların inkişafı üçün mərkəzdir.

**Prezident Kasım-Jomart TOKAYEV:** Söz verdi.

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Prezident Kasım-Jomart TOKAYEV:** Vaxt və keyfiyyət.

**Prezident İlham ƏLİYEV:** Xüsusən ona görə ki, indi Füzuli şəhərinin tikintisinin baş planı təsdiqlənib, artıq yaşayış fondunun ilk tikililəri başlayır. Məhz həmin vaxtadək bu mərkəz hazır olanda biz Füzulinin ilk sakinlərini oraya köçürməyi planlaşdırırıq.

**Aydın RAXİMBAYEV:** Biz isə uşaqları orada qarşılamağa şad olacağıq.

**Prezident İlham ƏLİYEV:** Bəli, sağ olun. Əlbəttə ki, ətrafdakı infrastrukturla bağlı bütün məsələləri biz paralel həll edəcəyik.

**Prezident Kasım-Jomart TOKAYEV:** Beləliklə, necə deyərlər, irəli.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

Azərbaycan.- 2022.-25 avqust.- S.2.